MÜSAHİBƏ

## Şahmar Mövsümov:

# Dövlət Neft Fondu barədə yeni qanunverici sənədin qəbul edilməsinə zərurət yoxdur

### "Neft Fondu öz fəaliyyətini qeyd edilən hüquqi sənədlər əsasında tam şəkildə həyata keçirir"

**Dövlət Neft Fondu fəaliyyətinin 10 ilini artıq geridə qoyub. Ötən on ildə fond özünü əməliyyatlarının şəffaflığına, informasiya idarəetməsinə və açıqlığına görə nümunəvi korporativ təşkilat kimi tanıda bilib. Azərbaycanda iri sosial layihələrin maliyyələşməsində iştirak edən bu qurum artıq ölkənin sərhədlərindən kənarda da investisiya qoymağa başlayıb. Bunu həm də Fondun Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünün reallaşmasındakı rolunun nəticəsi kimi saymaq olar.**

Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) icraçı direktoru Şahmar Mövsümov *"İki sahil"ə* müsahibəsində rəhbərlik etdiyi qurumun əldə etdiyi nəticələrdən və qarşıdakı vəzifələrdən danışıb:

***- ARDNF Beynəlxalq Maliyyə Korporasiyasının Afrika, Latın Amerikası və Karib Fonduna 100 milyon dollar sərmayə yatıracağını elan edib. Bu layihənin mahiyyəti nədən ibarətdir və buradakı iştirakçılıq Azərbaycana nə verəcək?***

Beynəlxalq Maliyyə Korporasiyasın Afrika, Latın Amerikası və Karib Fondu ilə əlaqədar Beynəlxalq Maliyyə Korporasiyasının (BMK) investisiya siyasəti inkişaf perspektivi yüksək olan şirkətlərin seçilməsi, onlara birbaşa və ya dolayı investisiyaların yatırılmasından ibarətdir. BMK-nın bu sahədə geniş təcrübəsi və qeyd olunan ölkələrdə nümayəndəliklərinin mövcudluğu yüksək potensiallı olan şirkətlərin seçilməsinə və investisiyaların səmərəliliyinə müsbət təsir göstərəcək. İlkin tranşda BMK-nın Afrika, Latın Amerikası və Karib Fondu 600 milyon ABŞ dolları məbləğində vəsaiti idarə edəcək ki, bunun da 100 milyon dollarının ARDNF tərəfindən ayrılması nəzərdə tutulur. Qeyd edim ki, BMK-nın Afrika, Latın Amerikası və Karib Fondu özəl investisiya fondudur (private equity fund) və ARDNF ilk dəfədir belə növ investisiya həyata keçirir. Özəl investisiya fondları alternativ investisiyalar sinfinə daxildir və adi investisiya alətlərindən (məsələn, bank depozitləri, istiqrazlar, iri şirkətlərin səhmləri və s.) bir sıra xüsusiyyətlərinə görə fərqlənir. İlk növbədə uğurlu özəl investisiya fondlarının gəlirliliyi adi investisiya alətlərinin gəlirliliyindən xeyli artıq olur. Bunun əsas səbəbi ondan ibarətdir ki, özəl investisiya fondları yeni yaradılan, kiçik və ya orta miqyaslı və həmçinin ilk mərhələdə kapital bazarına adekvat çıxışı olmayan şirkətlərə vəsait yatırır, belə şirkətlərin gəlir gətirmə potensialı isə çox yüksək olur.

Özəl investisiya fondlarının başqa bir səciyyəvi xüsusiyyəti də onların uzunmüddətli, qeyri-likvid investisiya aləti olmasıdır. Özəl investisiya fondlarına vəsaitlər bir qayda olaraq 10 il müddətinə və ya daha artıq müddətə yatırılır. Bu, özəl investisiya fondlarının mahiyyətindən irəli gələn bir xüsusiyyətdir. Bir çox hallarda fəaliyyətinin ilk illərində özəl investisiya fondları heç bir gəlir gətirmir, bəzən isə hətta müəyyən zərərlə üzləşir. Sonrakı illərdə isə onların gəlirliliyi artmağa başlayır. Özəl investisiya fondlarının qeyri-likvid olması da bizim tərəfimizdən nəzərə alınmışdır. Bu səbəbdən ARDNF-in Afrika, Latın Amerikası və Karib Fonduna sərmayəsi hazırkı ümumi investisiya portfelimizin yalnız 0,6 faizini təşkil edir.

***- Bu yaxınlarda İctimai Birliklərin "Mədən Sənayesində Şəffaflığın Artırılması" (MSŞA) Koalisiyası "Neft Fondu haqqında" Qanun layihəsini hazırlayaraq ictimaiyyətə təqdim edib. Bu qanun layihəsi Fonda təqdim olunubmu? Ümumiyyətlə, Sizin belə bir qanunun Milli Məclisdə qəbul olunmasına münasibətiniz necədir?***

- Dövlət Neft Fondu haqqında müvafiq qanunvericilik artıq mövcuddur. Belə ki, Dövlət Neft Fondu ümummilli liderimiz Heydər Əliyevin 29 dekabr 1999-cu il tarixli Fərmanı ilə təsis edilib. 2000-ci ildə Fondun Əsasnaməsi Prezidentinin müvafiq Fərmanı ilə təsdiq olunub. 2001-ci ildə isə Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitlərinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar" və Prezidentin digər Fərmanı ilə "Azərbaycan Respublikası Dövlət Neft Fondunun illik gəlir və xərclər proqramının (büdcəsinin) tərtibi və icrası Qaydaları" təsdiq edildi. Neft Fondu öz fəaliyyətini qeyd edilən hüquqi sənədlər əsasında həyata keçirir. Bu isə Fond barədə yeni qanunverici sənədin qəbul edilməsinə zərurət olmadığını göstərir.



***- Milli Məclisin də Dövlət Neft Fondunun gəlirlərinin idarə olunmasında birbaşa iştirakını təmin etmək üçün nə təklif edərdiniz?***

- Dövlət vəsaitlərinin, o cümlədən dövlət büdcəsi və büdcədənkənar fondların sərəncamında olan vəsaitlərin istifadəsinə Milli Məclisin nəzarəti dövlət büdcə layihəsinin hər il parlament tərəfindən müzakirə edilməsi ilə başlayır. Belə ki, büdcədənkənar dövlət fondlarının, o cümlədən Dövlət Neft Fondunun büdcəsinin gəlir və xərcləri icmal büdcənin tərkib hissəsini təşkil etdiyindən, büdcədənkənar fondların hər növbəti il üçün gəlir və xərcləri Azərbaycan Respublikasının icmal büdcə layihəsi, o cümlədən dövlət büdcə layihəsi ilə bağlı sənədlər zərfi şəklində Məclis üzvlərinə təqdim edilir. Büdcə layihəsi ilə bağlı sənədlər toplusunda dövlət büdcəsinin gəlir və xərcləri ilə bərabər büdcədənkənar fondların gəlir və xərclərinin təsnifatı verilir və büdcə layihəsi təsdiq edilərkən, icmal büdcə xərclərinin yuxarı həddinin məbləği təsdiq edilir. Dövlət büdcəsinin müzakirəsi zamanı Milli Məclisin plenar sessiyalarında Dövlət Neft Fondunun icraçı direktoru və digər səlahiyyətli nümayəndələr iştirak edir və bu iclaslarda millət vəkilləri tərəfindən Fondun fəaliyyətinə aid suallar cavablandırılır. Digər tərəfdən, Milli Məclisin ali nəzarət orqanı olan Hesablama Palatası tərəfindən Dövlət Neft Fondunun fəaliyyəti auditdən keçirilir. Milli Məclisin sədr müavini Dövlət Neft Fondunun Müşahidə Şurasının üzvüdür, bu da Fondun fəaliyyəti ilə bağlı məsələlərin müzakirəsində Milli Məclisin nümayəndəsinin iştirakını bir daha təsdiq edir.

***- Fond öz vəsaitləri hesabına sosial layihələrin icrasına, neft gəlirlərinin necə xərcləndiyinə nəzarət edirmi?***

- Dövlət Neft Fondu tərəfindən layihələrin maliyyələşdirilməsi Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə hər il üçün təsdiq edilmiş Neft Fondunun büdcəsi çərçivəsində həyata keçirilir. Dövlət Neft Fondunun vəsaiti hesabına layihələrin maliyyələşdirilməsi yalnız sifarişçi təşkilatlar tərəfindən Neft Fonduna tam əsaslandırılmış maliyyə sənədləri təqdim edildikdən sonra, bu sifarişçi təşkilatların dövlət xəzinədarlığındakı hesabına köçürülməsi yolu ilə həyata keçirilir və sifarişçi təşkilatlar bu vəsaitlərin istifadəsi üzrə birbaşa məsuliyyətlidirlər. Bundan əlavə Neft Fondu tərəfindən layihənin monitorinqi, sənədlərin təhlili aparılır, layihənin icrasında və vəsaitlərin istifadəsində səmərəliliyin artırılması üzrə icraçı təşkilatlara tövsiyələr verilir.

***- Fondun özünün saxlanması xərclərinin ümumi dövlət büdcəsindən kənarda nəzərdə tutulması iqtisadçı-ekspertlər tərəfindən birmənalı qarşılanmır. Siz necə hesab edirsiniz, fondun saxlanma xərcləri ümumi dövlət büdcəsi çərçivəsində göstərilməsi yaxın gələcəkdə mümkündürmü?***

- Dövlət Neft Fondu büdcədənkənar dövlət fondu olaraq Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə hüquqi şəxs qismində təsis edilib və dövlət büdcəsindən kənar müstəqil büdcəyə malik olan məqsədli dövlət maliyyə fondu kimi fəaliyyət göstərir. Büdcədənkənar dövlət fondlarının gəlir və xərclərinin, o cümlədən idarə edilməsi (saxlanılması) ilə bağlı xərclərin icmal dövlət büdcəsinə daxil edilməsi proseduru "Azərbaycan Respublikasının Büdcə sistemi haqqında" qanunu ilə tənzimlənir. Qanunun 27.2. maddəsinə əsasən, Büdcədənkənar dövlət fondlarının bütün xərcləri (Azərbaycan Respublikası Dövlət Neft Fondunun əməliyyat xərcləri və beynəlxalq banklarda və digər maliyyə institutlarında vəsaitin yerləşdirilməsi ilə bağlı xərclər istisna olmaqla) icmal büdcənin xərclərinə daxil edilir. Dövlət Neft Fondunun büdcəsinin gəlir və xərcləri, o cümlədən idarə edilməsi ilə bağlı xərcləri Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilir. 2010-cu il üçün Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər Fondun ümumi büdcə xərclərinin 0,6 faizini təşkil edir.

***- Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü (MHŞT) tərəflərinin hesabatlılığını yetərli sayırsınızmı?***

- Azərbaycan Respublikasında mineral ehtiyatların istismarı ilə əlaqədar dövlət orqanlarının daxilolmaları, dövlət şirkətləri və digər dövlət mülkiyyətində olan qurumlar tərəfindən əldə edilən gəlirlər barədə vahid ümumölkə hesabatının hazırlanmasını təmin etmək səlahiyyətlərinə malik MHŞT üzrə Komissiya və Azərbaycan Respublikasında mədən hasilatı sənayesində fəaliyyət göstərən yerli və xarici şirkətlər MHŞT-ni tətbiq edən digər ölkələrdən fərqli olaraq ildə 2 dəfə (illik və yarımillik hesabatlar) 2003-cü ildə MHŞT üzrə Beynəlxalq Konfransda tövsiyə edilmiş və sonradan MHŞT-nin iştirakçıları tərəfindən razılaşdırılmış hesabat formaları əsasında müntəzəm hesabat verirlər. 2004-cü ildən bu günə qədər bu formalar əsasında MHŞT üzrə artıq 12 hesabat dərc olunmuşdur. Bu da onu sübut edir ki, 6 il ərzində Azərbaycanda tətbiq olunan MHŞT üzrə hesabatlılıq sistemi bu proses üçün lazımi, mühüm və MHŞT çərçivəsində yetərli olan məlumatın təqdim olunması əsasında həyata keçirilir. Mayın 14-də 2009-cu ili əhatə edən 12-ci hesabat dərc olunub. İndiyədək MHŞT Tərəflərinin hesabatlılığı yetərli olsa da, bu hesabatda bir sıra yeniliklər də var. Belə ki, ilk dəfə olaraq hesabatda Azərbaycanda neft-qaz hasilatı ilə məşğul olan şirkətlərin məlumatlarından əlavə qızıl və gümüş hasilatı sahəsində fəaliyyət göstərən şirkətin də məlumatları öz əksini tapıb. Eyni zamanda, hesabatda əvvəlkilərdən fərqli olaraq, səmt və təbii qaz ayrılıqda, eləcə də vergilər müxtəlif növlər üzrə təqdim olunub. Bu isə hesabatın təqdim etdiyi məlumat bazasını genişləndirib.

Elxan SALAHOV